**AZƏRBAYCAN TÜRKİYƏ İŞ ADAMLARI BİRLİYİ**
**AZERBAIJAN TURKEY BUSINESS ASSOCIATION**

# MƏTBUAT ÜÇÜN AÇIQLAMA

## AZƏRBAYCAN TÜRKİYƏ İŞ ADAMLARI BİRLİYİNİN BƏYANATI

**No: 09/19/98**
**07.04.2009**

Son zamanlar yerli və xarici kütləvi informasiya vasitələrində Türkiyə və Ermənistan arasında sərhədlərin yaxın zamanlarda açılacağı barədə çoxsaylı xəbərlər yayılmaqdadır. Azərbaycan Türkiyə İş Adamları Birliyi olaraq, bu məsələ üzrə həssaslığımızı və narahatlığımızı Azərbaycan və Türkiyə ictimaiyyətinin, eləcə də beynəlxalq ictimaiyyətin diqqətinə çatdırmağı vacib hesab edirik.

Azərbaycan Türkiyə İş Adamları Birliyi olaraq inanırıq ki, yaşadığımız və fəaliyyət göstərdiyimiz regionda sabitliyin, davamlı iqtisadi inkişafın və əhalinin rifahının təmin olunması üçün ilk növbədə mövcud regional münaqişələrin, o cümlədən Ermənistan və Azərbaycan arasındakı Dağlıq Qarabağ münaqişəsinin beynəlxalq hüquq prinsiplərinə uyğun həlli vacibdir və bu istiqamətdə həyata keçirilən səmimi səyləri və təşəbbüsləri dəstəkləyirik.

Azərbaycan Türkiyə İş Adamları Birliyi bəyan edir ki, Türkiyə və Ermənistan sərhədlərinin açılması üçün əvvəlcədən müəyyənləşdirilmiş şərtlər yerinə yetirilməyincə, yəni Ermənistan qondarma "erməni sıyqırımı" iddiasından və Türkiyəyə qarşı torpaq və təzminat iddiasından imtina etmədikcə, bu məsələnin dəyərləndirilməsinin tarixçilərin və elm adamlarının ixtiyarına buraxmadıqca və bundan Türkiyəyə qarşı üçüncü ölkələrdəki havadarları vasitəsilə "siyasi təzyiq aləti" kimi istifadə etməyə son vermədikcə, Azərbaycanın beynəlxalq hüquqla tanınmış ərazilərinin işğalına son qoymadıqca və qaçqın və məcburi köçkünlərin öz yurdlarına qayıtmasını təmin etmədikcə sərhədlərin açılması yalnız Ermənistanın və onun havadarları olan bəzi üçüncü ölkələrin və dairələrin maraqlarına uyğun olacaqdır.

Azərbaycan Türkiyə İş Adamları Birliyi hesab edir ki, ermənilərin və onların arxasında duran dairələrin planları həyata keçəcəyi təqdirdə, o cümlədən yuxarıda sadalanan şərtlər yerinə yetirilmədən Türkiyə və Ermənistan arasında sərhədlərin açılacağı halda hazırda Azərbaycan və Türkiyənin malik olduğu strateji üstünlüklər heçə enəcək, Azərbaycan və Türkiyə arasında siyasi, iqtisadi və sosial əlaqələrə ciddi zərbə vurulacaq, ölkələrimizin regionda malik olduqları geosiyasi nüfuza ciddi zərbə dəyəcək ki, bu da öz növbəsində hazırda malik olduğumuz regionda enerji resurslarına nəzarət imkanlarının zəifləməsinə gətirib çıxaracaqdır.

Azərbaycan Türkiyə İş Adamları Birliyi yuxarıda deyilənləri nəzərə alaraq, hazırkı şəraitdə Türkiyə və Ermənistan arasında sərhədlərin açılmasına etiraz edir və bu addımın Türkiyəyə heç bir mənfəət gətirməyəcəyi fikrində olduğunu bildirir.

Əlaqə informasiyası:
Tel.: (+994 12) 449 88 82 / 83; Faks: (+ 994 12) 449 88 84; e-mail: pr@atib.az

**Mətbuat üçün açıqlamadan istifadə edərkən**
**ATİB-in İctimaiyyətlə Əlaqələr Şöbəsinə istinad edilməsi vacibdir**

Azərbaycan Türkiyə İş Adamları Birliyi Azərbaycan ictimaiyyətinin nəzərinə çatdırır ki, Türkiyə ictimaiyyətinin bütün siyasi, iqtisadi və sosial təbəqələrində və qruplarında Türkiyə və Ermənistan arasında sərhədlərin açılması məsələsinin doğuracağı mənfi nəticələr barədə məlumatlı olan, bu məsələyə kifayət qədər həssas yanaşanlar və bu addıma qarşı olanlar heç də azlıq təşkil etmir və onlar bu mövqelərində israrlıdırlar.

Azərbaycan Türkiyə İş Adamları Birliyi Türkiyə ictimaiyyətində Türkiyə və Ermənistan arasında sərhədlərin açılması tərəfdarı kimi çıxış edənlərdən aşağıdakı sualı səmimi şəkildə və vicdanlarının səsinə qulaq asaraq cavablandırmağı xahiş edir: Türkiyənin 20% ərazisi Ermənistan tərəfindən işğal edilsəydi və əhalinin 1/8 hissəsi qaçqın və məcburi köçkün olsaydı siz Azərbaycanın Ermənistanla sərhədlərini açmasını necə dəyərləndirərdiniz?

Azərbaycan Türkiyə İş Adamları Birliyi əsas məsuliyyət daşıyıcısı olan Türkiyə hökumətinin Azərbaycan və Türkiyə ictimaiyyətinin bu məsələdə haqlı narahatlığını diqqətə alaraq, Türkiyə və Ermənistan arasında sərhədlərin açılmasına daha həssas və diqqətli yanaşacağına, Türkiyə və Azərbaycanın dövlət maraqlarını əsas götürəcəyinə ümid etdiyini bildirir.

Azərbaycan Türkiyə İş Adamları Birliyi ilk növbədə Türkiyə hökumətini, daha sonra isə Azərbaycan hökumətini məsələ ilə bağlı aktiv səmimi dialoqa və hazırda mövcud olan şəraitdən Ermənistanın və onun havadarları olan bir sıra üçüncü ölkələrin və dairələrin öz mənfəətlərinə uyğun istifadə etmələrinə imkan verməməyə, Azərbaycanın və Türkiyənin dövlət maraqlarının uzlaşdırılacağı siyasət yürütməyə çağırır.

Əlaqə informasiyası:
Tel.: (+994 12) 449 88 82 / 83; Faks: (+ 994 12) 449 88 84; e-mail: pr@atib.az

**Mətbuat üçün açıqlamadan istifadə edərkən**
**ATİB-in İctimaiyyətlə Əlaqələr Şöbəsinə istinad edilməsi vacibdir**